AZƏRBAYCANIN BÜTÖVLÜYÜ, MÜSTƏQİLLİYİ VƏ TƏRƏQQİSİ

# RESPUBLİKA

TƏSİSÇİ: AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN İŞLƏR İDARƏSİ VƏ QƏZETİN REDAKSİYA HEYƏTİ

24 YANVAR 2025-ci il CÜMƏ № 15 (8063) GÜNDƏLİK İCTİMAİ-SİYASİ, SOSİAL-İQTİSADİ QƏZET WWW.RESPUBLIKA-NEWS.AZ



## Davos 2025:

## Qlobal iqtisadiyyatın və əməkdaşlığın yeni mərhələsi

*Dünya İqtisadi Forumunun builki toplantısı müasir qlobal çağırışlar fonunda mahiyyət və keyfiyyətcə tam yeni dövrə təsadüf edir. Məlumdur ki, ötən ilə qədər dünyanın əsas gündəmi olan post-COVID-19 dövrünün aktual problemləri artıq daha ciddi təhdidlərlə əvəzlənib. Məsələn, qütblərarası ziddiyyətin, siyasi, sosial, iqtisadi və demoqrafik böhranların dərinləşdiyi bir vaxtda qlobal iqtisadi inkişaf, əməkdaşlıq tamamilə yeni baxış və yanaşmalar tələb edir. Hətta bir neçə ay öncə effektiv sayılan yanaşmaların bu gün səmərəli nəticə vermədiyi vəziyyətdə qlobal güclər də anlayır ki, radikal maraqları diktə etməklə nəyəsə nail olmaq mümkün deyil.*

Bu mənada ortaq yol, birgə qənaət tapılmazsa, dərinləşməkdə olan geosiyasi və geoiqtisadi parçalanma, təhlükəsizlik problemləri, iqlim və ərzaq böhranı tamamilə nəzarətdən çıxaraq fəlakətə səbəb ola bilər. Bu baxımdan, beynəlxalq birlik faktiki olaraq Dünya İqtisadi Forumuna fürsət kimi baxır və builki toplantıda daha çox diqqət dəvətlilərin istər regional, istər qlobal müstəvidə qabiliyyətli, nüfuzlu liderlər olması elementinə yönəlib. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin növbəti dəfə Foruma dəvət olunması dövlət başçımızın yeni konfiqurasiyada da beynəlxalq aləmdəki yüksək nüfuzunun və yeni reallıqlar yaradan lider rolunun göstəricisidir.

Məlumdur ki, Cənubi Qafqaz əsrlər boyu özünün coğrafi mövqeyi və təbii sərvətlərlə zənginliyi baxımdan beynəlxalq güclərin maraqlarının toqquşduğu coğrafiya olmuş və region əhalisi özünün təbii ehtiyatlarından faydalanmaq əvəzinə daim zərər görmüşdür. Cənab İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın siyasi və iqtisadi cəhətdən tam müstəqilliyini əldə etməsi, suveren güc kimi özünü təsdiqləməsi, işğala, təcavüzə və xüsusən separatizmə son qoyulması tamamilə yeni bir dövr başlatmış, bütün bu amillər istər coğrafi mövqeyimizi, istərsə də zəngin təbii ehtiyatlarımızı Azərbaycan üçün köklü problemlərdən dividendə çevirmişdir. Bundan başqa, Azərbaycan Prezidentinin liderliyində istər COVID-19 pandemiyası ilə mübarizədə qlobal səylərin birləşdirilməsi, istər Qoşulmama Hərəkatının sədri qismində bəşəri niyyətlər naminə tarixi addımların atılması, habelə bu gün dünyanın əsas problemlərindən olan iqlim dəyişmələri ilə mübarizə çərçivəsində COP29-da məhz dövlət başçımızın səyləri ilə əldə olunan nəticələr ölkəmizin qlobal liderlik missiyasında da özünü inamla təsdiqlədi.

Qlobal təhdidlərin artdığı, qarşıdurmaların və ayırıcı xətlərin kəskinləşdiyi dövrdə Azərbaycan təcrübəsi və cənab İlham Əliyevin beynəlxalq miqyaslı lider olaraq yaratdığı nümunə diqqəti cəlb etməyə bilməzdi. Xüsusən nəzərə alsaq ki, Davos iqtisadi müstəvi hesab olunsa da, alınan qərarların nəticələri dünya siyasətində beynəlxalq münasibətlərdə ciddi formada inikas olunur.

(davamı 2-ci səhifədə)

# Davos 2025:

## Qlobal iqtisadiyyatın və əməkdaşlığın yeni mərhələsi

(əvvəli 1-ci səhifədə)

Yaşadığımız dövrdə ziddiyyətlərin daha da artmasını və bir çox coğrafiyalarda hərbi qarşıdurma formatına keçməsi fonunda cari mürəkkəb geosiyasi şəraiti nəzərə alaraq Davosda kommunikasiyaların siyasi təsirlərinin çəkisinin əvvəlki illərdən daha çox olacağını düşünmək üçün kifayət qədər ciddi əsaslar mövcuddur. Lakin əvvəldə də qeyd etdiyimiz kimi, ötən dövrdə masada olan alət və vasitələr, eyni zamanda köhnə hədəflər artıq effektiv deyil. Bu gün əsas alətlər müasir innovasiyalar və alternativ, bərpaolunan, daimi mənbələr hesabına təmin edilən enerji təhlükəsizliyidir. Bu sahədə, təbii ki, ixtisaslaşmış və özünü təsdiq etmiş dünya nəhəngləri var. Prezident İlham Əliyevin ardıcıl səyləri sayəsində Azərbaycan həmin müasir enerji tendensiyalarının elit klubunun yeni üzvü kimi nəinki qəbul edilir, artıq bir çox coğrafiyalarda bu sahədə dövlətimizin başçısı ilə birmənalı şəkildə hesablaşılır.

Avropanın enerji təhlükəsizliyində əhəmiyyətli söz sahibi olması, alternativ mənbələr hesabına enerji istehsalçısı kimi sürətlə aparıcı mövqeyə yüksəlməsi Davos Forumunda Azərbaycana baxış rakursunda da artıq bir neçə ildir ki, köklü dəyişikliklərə yol açıb. Prezident İlham Əliyev praqmatik siyasətçi və təcrübəli iştirakçı kimi həm yeni tendensiyalardan qarşılıqlı faydalanaraq Azərbaycanda həyata keçirilən mühüm regional nəqliyyat və enerji layihələrinə diqqət çəkmək, həm də ölkəmizin həqiqətlərini bəyan etmək üçün Davos Forumunun əhəmiyyət və imkanlarını kifayət qədər düzgün qiymətləndirir. Davosda çoxsaylı görüş müraciətləri fonunda birmənalı şəkildə o qənaətə gəlmək mümkündür ki, qlobal birlik də cənab İlham Əliyevin yaratdığı reallıqların Azərbaycanın artan güc və imkanlarının fərqindədir. Davosda məhz qarşı tərəfin müraciəti əsasında dövlət başçımızın Almaniya Federativ Respublikasının Kansleri Olaf Şolts və İsrailin Prezidenti İsxak Hersoq ilə görüşləri istər iqtisadi, istər qlobal təhlükəsizlik məsələlərində Azərbaycanın artan rolu və Prezident İlham Əliyevin bu proseslərə baxışının aparıcı geosiyasi güclər üçün nə qədər önəmli olduğunu təcəssüm etdirir. Müəyyən dövrlərdə kifayət qədər radikal mövqeyi ilə seçilən Almaniya hökumətinin bu gün Azərbaycanın Avropa İttifaqı ilə əməkdaşlığının inkişaf etdirilməsinin perspektivlərinə dair fikir mübadiləsi aparması, o cümlədən Almaniya Kanslerinin açıq mətnlə Cənubi Qafqaz regionunda davamlı sülhün və sabitliyin təmin olunması istiqamətində Azərbaycanın səylərini dəstəklədiyini bildirməsi Qərbin, xüsusən Avroməkanın dövlətimizin yaratdığı reallıqları qəbul etdiyini göstərir. Bundan başqa, Davos kimi önəmli geosiyasi platformada dünyanın aparıcı güclərindən olan İsrailin dövlət başçısının Azərbaycanda zəngin multikultural mühitin mövcudluğu, habelə ölkəmizdə yəhudi icmasının digər icma nümayədələri kimi əmin-amanlıq və qarşılıqlı anlaşma şəraitində yaşamaları üçün hərtərəfli şəraitin yaradılmasını məmnunluqla qeyd etməsi Azərbaycana qarşı çirkin böhtan və qarayaxma kampaniyaları, o cümlədən digər etnoslara "ayrıseçkilik zəminində" heç bir əsası olmayan ittihamlar fonunda cənab İlham Əliyevin növbəti siyasi qələbəsi hesab olunmalıdır. Həmçinin Davosda Latviya Prezidenti Edqars Rinkeviçs, İraq Prezidenti Əbdüllətif Camal Rəşid, habelə İraq Kürdüstan Regionunun Baş naziri Məsrur Bərzani ilə görüşlər və bu görüşlərin qarşı tərəflərin istəyi ilə baş tutması regionda sülh və sabitlik məsələlərinin Azərbaycan Prezidenti ilə müzakirə olunması yaranan yeni reallıqda Azərbaycanın gücünün və qlobal təsir imkanlarının növbəti göstəricisi oldu. Dünya İqtisadi Forumu çərçivəsində "OliverWyman Group", "The Goldman Sachs Group İnc.", "DP World", "Carlsberg Group" kimi qlobal biznes nəhənglərinin Azərbaycan Prezidenti ilə görüş istəkləri isə ölkəmizdə sabit, təhlükəsiz şəraitin, güvənli investisiya mühitinin, habelə şəffaf idarəetmə formatının tam şəkildə bərqərar olunduğunu və bunun qlobal miqyasda qəbul edildiyini bəyan etmiş oldu. Təsadüfi deyil ki, beynəlxalq biznes mühitində strateji mövqeyə malik şirkətlər Azərbaycanın iqtisadi transformasiya prosesinin sığorta, maliyyə bazarının müxtəlif istiqamətlərinin inkişafı, enerji sektorunda, o cümlədən ənənəvi və






"yaşıl enerji" sahəsində keçirilən layihələrə, kənd təsərrüfatı məhsullarının ixracına, bölgədə yeni ticarət imkanlarını əhatə etməklə dəyər zəncirinin lokallaşdırılmasına maraq göstərdiklərini açıq mətnlə birbaşa dövlət başçımızın diqqətinə çatdırıraq ondan bu istiqamətdə dəstək rica etdilər. Görüşlər zamanı cənab Prezidentin mövqeyi isə deməyə əsas verir ki, regionda baş verən iqtisadi proseslər milli maraqlar rəhbər tutularaq çoxsaylı yeni layihələr çərçivəsində qlobal biznes dairələri ilə tərəfdaşlığın inkişafı istiqamətində beynəlxalq investisiya imkanlarının genişləndirilməsi baxımından dəyərləndiriləcək, tərəfdaşlıqların genişləndirilməsi və inkişafı istiqamətində potensial imkanlar araşdırılacaq. Bu mənada, əminliklə demək olar ki, Davos Azərbaycan üçün kifayət qədər ciddi uğurlarla başladı. Tədbir dünyanın iqtisadi mənzərəsinin formalaşdırılmasında önəmli rol oynayaraq qlobal iqtisadiyyata və siyasi proseslərə yeni istiqamət verir. Prezident İlham Əliyevin Davos İqtisadi Forumun ilk günündə zəngin qrafiki rəsmi Bakının artıq dünya ilə yeni tendensiyaların dilində danışdığını göstərir.

**Bəhruz MƏHƏRRƏMOV,**
**Milli Məclisin deputatı.**